## Kommersiya hüquqi şəxsləri üçün tələb olunan sənədlər:

- Nizamnamənin notariat və ya elektron qaydada təsdiq olunmuş surəti[1];
- Dövlət reyestrindən çıxarışın notariat və ya elektron qaydada təsdiq olunmuş surəti (ən son dəyişiklikləri əks etdirməklə);
- Dövlət qeydiyyatı haqqında şəhadətnamənin surəti;
- Benefisiar mülkiyyətçi haqqında məlumat - təsisçilər hüquqi şəxsdirsə, hüquqi şəxsin dövlət reyestrindən çıxarışın notarius tərəfindən təsdiq edilmiş surəti(təsisçilərin şəxsiyyətini təsdiq edən sənədin surəti), fiziki şəxsdirsə - şəxsiyyətini təsdiq edən sənədin surəti;
- Hesaba sərəncam vermək (imza) hüququ olan şəxslərin təyin edilməsi haqqında sənədlərin (protokol, qərar, əmr) təşkilat tərəfindən təsdiq edilmiş surəti (çıxarışları);
- Hesaba sərəncam vermək (imza) hüququ olan şəxslərin şəxsiyyət vəsiqələrinin surəti);
- Hüquqi şəxslərin vergi rezidentliyinin müəyyən edilməsi üçün özünüqiymətləndirmə anketi; (forma bank tərəfindən verilir)
- Hüquqi şəxslər üçün özünüqiymətləndirmə anketi (W-8BEN-E), zərurət olduqda -W9; (forma bank tərəfindən verilir)
- Müştərini tanı ərizəsi; (forma bank tərəfindən verilir)
- İmza və möhür nümunələri vərəqəsi (notariat və ya bank tərəfindən təsdiq edilir)
- «Bank hesablarının açılması, onlara xidmət göstərilməsi və bank hesablarının bağlanması Qaydaları»na qoşulma haqqında ərizə; (forma bank tərəfindən verilir)

***Qeyri-rezident hüquqi şəxslərin filial və nümayəndəlikləri üçün əlavə olaraq xarici şirkətin təsis sənədləri; direktorun təyin edilməsi haqqında qərarın və direktorun adına verilmiş etibarnamənin Azərbaycan dilinə tərcümə olunmuş və notarius tərəfindən təsdiq edilmiş surəti

*Qeyd: 1. Hüquqi sənədlər elektron qaydada Bank tərəfindən hesab sahibinin razılıq ərizəsi əsasında Dövlət Vergi Xidmətinin portalından əldə olunur. Bunun üçün Bankın hesab sahibinə elektron şəkildə təqdim etdiyi razılıq ərizəsi sənədi asan.doc formatında imzalanaraq mail vasitəsilə təqdim olunmalıdır.*